# "Azərbaycan dili" ibtidai siniflərdə təlim fənlərinin əsası kimi

**Nəsibə Vahid qızı Quliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** Nesibequliyeva98@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.A. Abdullayeva,
p.ü.f.d., dos. N.B. Cəfərova

**Açar sözlər:** Azərbaycan dili, ana dili, dil normaları, təlimin məqsədi, nitq bacarıqları, kollektiv çalışmalar

**Ключевые слова:** Азербайджанский язык, родной язык, языковые нормы, цель обучения, речевые навыки, коллективные упражнения

**Key words:** Azerbaijan language, native language, language norms, learning goal, speech skills, collective exercises

Müasir dövrdə təhsil paradiqmalarının dəyişməsi, zəngin innovasiyalar, yeni təlim texnologiyalarının tətbiqi bir tərəfdən biliklər arasında əlaqənin, digər tərəfdən zəruri bacarıqların formalaşmasını ön plana çəkir. Rəsmi dövlət dili, əsas təlim fənni olan Azərbaycan dilinin milli iftixar və qürur mənbəyi kimi daim inkişaf etdirilməsi, bu dilə məhəbbət hissi tərbiyə olunması məhz bu işin ibtidai mərhələdə aparılması səviyyəsi ilə sıx bağlıdır. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi qarşısında çox zəruri vəzifələr qoyulur. Bu da, hər şeydən əvvəl, onun təlim dili olması ilə əlaqədardır.

Azərbaycan dilini öyrənmək şagirdlərin ünsiyyət bacarıqlarının inkişafına səbəb olur. Milli Kurikulum Sənədində qeyd olunmuşdur ki, Azərbaycan dilinin tədrisində məqsəd şagirdlərin dil və ümumi nitq bacarıqlarını inkişaf etdirməklə dil və mədəniyyətə yiyələnmələrini təmin etməkdir. Məhz bu səbəblə də, ümumi fonetik inkişaf fonetik və dil bacarıqlarına yiyələnmək yolu ilə həyata keçirilir; Azərbaycan dilini bilmək düşüncə, öyrənmə və danışma vasitəsidir; davamlı təhsil prosesində potensialı bilik və praktik fəaliyyət bacarıqlarına yiyələnmək çox vacibdir.

Ana dili şagirdin dilinin, mədəniyyətinin formalaşmasına yardım edir. Bu zaman şagirdlər zəngin lüğətə malik olur və dilin üslubi, qrammatik xüsusiyyətlərini öyrənir. Onlar elmdə, incəsənətdə, publisistikada və başqa üslublarda yaradılmış ədəbiyyatla tanış ola bilirlər. Ana dili güclü tərbiyə və mədəniyyət vasitəsidir. Onun vasitəsilə şagirdlər milli-mənəvi dəyərləri öyrənir, nəcib, humanist keyfiyyətlərə yiyələnirlər. Həmçinin bu dildən istifadə onların öyrənəcəkləri digər fənləri daha yaxşı mənimsəmək potensialını genişləndirməyə yardım edir.

İbtidai siniflərdə Azərbaycan dilinin dərindən mənimsənilməsi onun məzmununun düzgün və elmi əsaslar zəminində qurulmasından asılıdır. Azərbaycan dili təliminin qarşısında duran ümumi və konkret didaktik vəzifələr şagirdlərin dünyagörüşünün və təfəkkürünün inkişafına və ən başlıcası nitq bacarıqlarının və nitq mədəniyyətinin inkişafına xidmət edir. Müasir Azərbaycan ədəbi dil normalarının (fonetik, orfoqrafik, orfoepik, leksik, semantik, qrammatik, üslubi) ibtidai siniflərdə təcrübi (praktik) yolla mənimsənilməsi zəruri olmaqla, gələcəkdə şagirdlərin kamil nitqə yiyələnməsini təmin edir. Kamil nitqi xarakterizə edən əsas amillər: nitqin aydınlığı, obrazlılığı, yığcamlığı, təmizliyi, düzgünlüyü, zənginliyi, sadəliyi, münasibliyi, rabitəliliyi, ifadəliliyi, dəqiqliyi, məntiqiliyi, konkretliyi, səlisliyi və ahəngdarlığı, səmimiliyinə dair bacarıqların özülü ibtidai siniflərdə qoyulur (3, s. 56).

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisində əsas məqsəd şagirdlərin ümumi

nitq, dil bacarıqlarını inkişaf etdirərək nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdir. Belə ki:

• nitq, dil bacarıqlarına yiyələnmək yolu ilə ümumi nitq inkişafı;

• Azərbaycan dilini bilmək, düşünmək və öyrənməni dərk etmək;

• Davamlı təhsil zamanı praktiki fəaliyyət üçün əsas bilik və bacarıqlara yiyələnmək vacibdir.

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi ilə aşağıdakı məqsədlərə nail olmaq mümkündür: ibtidai səviyyədə əlifbanı öyrənmək, oxu və yazı bacarıqlarını mənimsəmək, orfoqrafiya qaydaları, düzgün, sürətli, şüurlu və ifadəli oxumaq üçün ilkin bacarıqları mənimsəmək, lüğət ehtiyatını artırmaq, öyrənilməsi və tətbiqi, tələffüz normaları, ifadə qabiliyyətlərinin formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri ilə bağlı əsas anlayışların yaradılması təmin edilir.

İbtidai siniflərdə ana dili ilə əlaqədar işlər iki istiqamətdə aparılır. Birinci və ikinci siniflərdə əsasən şagirdlər əlifbanı öyrənir, oxu və yazı texnikasına yiyələnirlər. Bu siniflərdə şagirdlərin düzgün, sürətli, süurlu və ifadəli oxuması xüsusi diqqət mərkəzində saxlanılır. III-IV siniflərdə isə müəllimlər oxu dərslərində şagirdlərə Azərbaycan dilinin dövlət dili olması, onun ahəngdarlığı, gözəlliyi, cazibədarlığı haqqında sadə, şagirdlərin anlaq səviyyəsinə uyğun məlumatlar verməklə onlarda ana dilinə qarşı məhəbbət hissi yaratmağa başlayırlar. Təcrübəli müəllimlər nəzm əsərlərinin tədrisində bu sahəyə geniş yer verirlər. Çünki şeirlərdə Azərbaycan dilinin füsunkar gözəlliyi daha qabarıq nəzərə çarpır. Digər tərəfdən ibtidai sinif şagirdləri şeir əzbərləməyi, şeir söyləməyi çox sevirlər (1, s. 85).

Müəllimlər şagirdlərin bu istəyindən istifadə edərək tez-tez müxtəlif müsabiqələr, disputlar, səhərciklər, səhnəciklər və s. keçirirlər ki, bunlar da şagirdlərin ana dilini daha yaxşı mənimsəmələri və onu sevmələri üçün çox böyük şərait yaratmış olur. İbtidai siniflərdə hər bir şagird müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağı, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağı bacarmalıdır. Bu baxımdan, Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Şagirdlər Azərbaycan dili fənni vasitəsilə milli mədəniyyət nümunəsi kimi Azərbaycan dilini və onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnir.

İbtidai sinif şagirdlərində Azərbaycan dilindən anlayış yaradılması həmin fənnin elmi əsasda şüurlu öyrədilməsini intensivləşdirir. Təcrübə göstərir ki, Azərbaycan dilindən anlayışların məzmunu praktik yolla müqayisəli açılmalı, onların hər birinin ifadə etdiyi qrammatik-semantik məna şərh olunmalıdır. Kiçik məktəb yaşı dövründə anlayışların elmi inkişafı məsələsi, hər şeydən əvvəl, böyük, bəlkə də birinci dərəcəli praktik əhəmiyyətə malikdir (4, s. 89). Onun yaranmasında hissi idrakın əhəmiyyətini yüksək qiymətləndirən İ.M. Seçenov sözün mənasına yiyələnməyin mexanizmini sözlə qıcıqlandırıcı arasında yaranmış rabitə kimi izah edirdi.

İbtidai siniflərin Azərbaycan dili dərsliklərindəki çalışmalar məzmununa və məqsədinə görə müxtəlif xarakterə malikdir:

a) Azərbaycan dilindən qazanılan bilikləri bilavasitə möhkəmləndirməklə nitq inkişafına xidmət edənlər;

b) şifahi və yazılı nitq bacarıq və vərdişləri aşılamağa xidmət edənlər.

Bu çalışmaları müəyyən qruplara bölmək mümkündür: fonetik, orfoepik, orfoqrafik, morfoloji, sintaktik, leksik, üslubiyyat və s. Bununla belə, dərsliklərdə söz və cümlələrin kiçik rabitəli mətnlərin təhlili, qarşılaşdırma, tutuşdurma, təsnifetmə və s. tipli çalışmalar da verilmişdir. Bu çalışmalar həm kollektiv, həm də fərdi yolla icra olunur. Təcrübə göstərir ki, Azərbaycan dilindən kollektiv çalışmalar yalnız sinifdə aparılır. Çalışmanın icrasından əvvəl məqsəd,

işin aparılma qaydası haqqında məktəblilərə istiqamət verilir, hər hansı nəzəri məlumat xatırladılır, aydınlaşdırılır, nümunələr gətirilir. Lazım gəldikdə müsahibə aparılır. Sonra çalışmanın kollektiv şəkildə yazılı icrasına başlanır. Axırda fəaliyyətinin nəticələri yoxlanılaraq yüksək qiymətləndirilən şagirdin yazı işi kollektivdə müzakirə olunur, onun müvəffəqiyyətinin cəhətləri və səbəbləri aydınlaşdırılır. Müəllimin tələbi ilə məktəblilər öz dəftərlərində düzəlişlər aparırlar. Bu, heç də o demək deyildir ki, kollektiv çalışmaların icrasında şagirdlərin fərdi iştirakı təmin olunmur. Əksinə, hər bir məktəbli çalışmanın icrası ilə əlaqədar faktlar fıkirləşir, misallar gətirir, şəxsi mülahizələrini söyləyir, əldə etdiyi qənaəti əsaslandırmağa, sübuta yetirməyə çalışır [2, s. 45].

İbtidai sinif şagirdlərinə praktik çalışmaların köməyi ilə Azərbaycan dilinin nəzəri materialları dərindən mənimsədilir, qazanılan biliklər möhkəmləndirilir, orfoqrafiya və nitq inkişafı sahəsində zəruri vərdişlər aşılanır.

Azərbaycan dilinin tədrisi özünün məzmunu ilə uşaqlarda vətəninə və xalqına coşqun məhəbbət hissinin tərbiyə edilməsinə, onların vətənpərvərlik ruhunda əsil vətəndaş kimi yetişməsinə xidmət edir. Azərbaycan dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə millimənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər. Şagird Azərbaycan dilini öyrənməklə öz zehnini yeni təsəvvürlər və surətlərlə, məfhum, fikir və ideyalarla zənginləşdirir. Mübariz, vətənpərvər, iradəli, milli mənlik şüuruna yiyələnən şəxsiyyət kimi formalaşmasının əsası qoyulur. Müşahidə və təcrübələr göstərir ki, məktəbdə bütün təlim və tərbiyə işlərinin müvəffəqiyyəti uşağın ana dili sahəsindəki uğurlu fəaliyyətindən çox asılıdır.

Azərbaycan dili hər hansı bir məlumatı mənimsəmək üçün başlıca alətlərdən biridir. Uşaq hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün dil bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir.

Azərbaycan dilinə yaxşı yiyələnmək uşaqların müvəffəqiyyətlə təhsil almalarına kömək edir. Azərbaycan dili təlimi uşaqların təfəkkür fəaliyyətinin formalaşmasına, müstəqilliyinin və yaradıcı təşəbbüsünün inkişafına kömək edir. Fəal/interaktiv təlimdən istifadə etməklə keçilən Azərbaycan dili dərsləri biliyin şüurlu şəkildə qazanılmasına imkan verir.

**Məqalənin aktuallığı.** Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə bu dil düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai siniflərdə Azərbaycan dilinin ibtidai siniflərdə təlim fənlərinin əsasının təşkilinin mahiyyəti və məzmunu araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə Azərbaycan dilinin öyrənilməsinin ibtidai sinif şagirdləri üçün əhəmiyyəti araşdırılmışdır. Məqalədən pedaqoqlar aktiv istifadə edə bilər.

## Ədəbiyyat

1. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə: Dərslik. Bakı, ADPU-nun nəşri, 2016, 403 s.

2. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

3. Rəhimov A. Əsərlər. 20 cilddə. XX cild: Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı: BQU-nun nəşriyyatı, 2015, 470 s.

4. Выготски Л.С. Избранные психологические исследования. Из-во АПН РСФС. М., 1956, с. 213.

**Н.В. Кулиева**

## Азербайджанский язык как основа преподавания предметов в начальной школе

## Резюме

Преподавание азербайджанского языка является одним из важных вопросов с точки зрения национальных интересов и государственности. Родной язык преподается в общеобразовательных школах и служит для формирования речевой культуры учащихся. Именно поэтому обучение родному языку с начальной школы высоко ценится как важный инструмент формирования национального мышления. Национальные учебные программы обычно начинаются с родного языка. Преподавание родного языка улучшает коммуникативные навыки учащихся. В результате этот язык становится средством мышления, обучения, речи.

**N.V. Guliyeva**

## Azerbaijani language as the basis of teaching subjects in primary school

## Summary

The teaching of the Azerbaijani language is one of the important issues in terms of national interests and statehood. The native language is taught in secondary schools and serves to form the speech culture of students. That is why teaching the native language from elementary school is highly valued as an important tool in the formation of national thinking. National curricula usually start with the mother tongue. Teaching mother tongue enhances students' communication skills. As a result, this language becomes a means of thinking, learning, speech.

**Redaksiyaya daxil olub:** 10.05.2022